# Seminar-treninq keçirilmişdir

*Rayon icra hakimiyyətində informasiya təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar seminar-treninq keçirilmişdir. Seminar-treninqə icra hakimiyyəti başçısının şəhər, qəsəbə, kənd inzibati ərazilər üzrə nümayəndələrinin müavinləri dəvət olunmuşdur. RİH-nin informasiya təminatı və təhlil sektorunun müdiri Zahir Kərimov tədbiri açaraq bildirmişdir ki, müasir dövrdə idarəetmə sistemində ən yeni texnologiyalardan, elektron vasitələrdən istifadə zəruri amilə çevrilmişdir.*

Vətəndaşlar tərəfindən rayon icra hakimiyyətinə olunan müraciətlərə baxılmasının operativliyini təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara uyğun olaraq RİH-in rəsmi internet saytında müvafiq elektron poçt ünvanı açılmışdır. Bu ünvan vasitəsilə rayon icra hakimiyyəti başçısına və aparatın digər məsul işçilərinə elektron formada müraciət etmək mümkündür. İdarəçilikdə, informasiyaların ötürülməsində elektron vasitələrdən daha çox istifadə olunması bu sahədə təhlükəsizliyin artırılmasını tələb edir. Sektor müdiri qeyd etmişdir ki, bütün bunlar nəzərə alınaraq rayonun inzibati ərazi nümayəndəlikləri tərəfindən aparılan elektron sənəd dövriyyəsinin, elektron poçt vasitəsilə aparılan yazışmaların, həmçinin daxil olan elektron müraciətlərin təhlükəsizliyini təmin etmək məqsədilə rayonun bütün inzibati ərazi nümayəndəliklərində elektron poçt ünvanları açılmışdır. Elektron poçt ünvanları RİH-nin rəsmi saytında qeyd olunmuşdur.

Rayon icra hakimiyyətinin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları və iş şöbəsinin baş məsləhətçisi Absalam Hüseynov seminarda çıxış edərək itnzibati ərazi nümayəndəliklərindən göndərilən infolrmasiyaların dəqiqliyinin, tamlığının və etibarlılığının təmin edilməsi ilə əlaqədar tövsiyələrini iştirakçıların nəzərinə çatdrmışdır.

Seminar-treninqdə iştirak edən rayon telekomunikasiya qovşağı mərkəzi ATS-nin mühəndisi Kənan Səlimov informasiya mübadiləsi zamanı informasiya təhlükəsizliyinin təmin edilməsi, mühafizə olunan rabitə kanallarından istifadənin əhəmiyyəti barədə ətraflı məlumat vermişdir. Tədbirdə inzibati ərazi nümayəndəliklərinə ayrılmış elektron poçt ünvanları təqdim olunmuş, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

**✍ Vüsal SƏMƏDOV,**
**RİH-nin informasiya təminatı və təhllil sektorunun aparıcı məsləhətçisi.**

# 6 noyabr Radio və Televiziya İşçiləri Günüdür

***Hər gün milyonlarla insan radio və televizor vasitəsilə dünyanın hər yerində baş vermiş mühüm hadisələrdən xəbər tutur, səs və görüntülər uzaq məsafələrə peyk antenaları vasitəsilə ötürülür.***

***1895-ci ildə rus fiziki Aleksandr Stepanoviç Popov radioqəbuledici və radioötürücü aparatı icad etmişdir. Avropada isə radionun kəşfi çox vaxt italyan alimi Qulyelmo Markoniyə aid edilir. O vaxtdan radio zəruri rabitə vasitəsinə çevrilmişdir. Televizorun (yunanca "tele"—uzaqlıq, latınca "vizor"—görmə sözlərindəndir) ixtirası isə bir qədər sonraya—XX əsrin 20-30-cu illərinə təsadüf edir.1933-cü ildə amerikalı mühəndis rus mənşəli Vladimir Zvorikin televizorun əsas hissələrindən biri olan ötürücü qurğunu ixtira etdi. 30-cu illərin ortalarından televiziya verilişlərinin yayımı başlandı. İlk televiziya verilişi 1936-cı ildə Londonda olmuşdur.1939-cu ildə ABŞ mühəndisləri A. Roze və X. Yoms tərəfindən televiziya ötürücü trubkası (optikon) ixtira edildi. Avropada yalnız 50-ci illərdə televiziya geniş yayılmağa başladı. Azərbaycanda radionun tarixi XX əsrin 20-ci illərindən başlayır. Bakıda ilk radio qurğusu 1924-cü ildə quraşdırılmışdır.1926-cı ildə isə ilk radiostansiya fəaliyyətə başlamışdır. Məhz həmin il noyabrın 26- da ilk radio verilişi efirə çıxmışdır. Hazırda ölkədə dövlət radio və televiziyası ilə yanaşı bir neçə özəl televiziya və radio kanalları müxtəlif məzmunlu verilişlər yayırlar.***

***Azərbaycanda hər il noyabrın 6-sı Radio və Televiziya İşçilərinin peşə bayramı günü kimi qeyd olunur.***

***«Qəbələ».***

# 2016-cı ilin 9 ayında rayonun sosial-iqtisadi inkişafının əsas göstəriciləri

**(Əvvəli 3-cü səhifədə).**

## Tikinti

İlin birinci yarısında rayon üzrə əsas kapitala 24 milyon 136,5 min manat vəsait yönəldilmiş, investisiyanın həcmi 24 milyon 136,5 min manat, tikinti-quraşdırma işlərinin həcmi 23 milyon 178 min manat təşkil etmişdir. Keçən illə müqayisədə əsas kapitala yönəlmiş investisiyanın həcmi 60,7 faiz azalmışdır.

Yarım il ərzində ümumi sahəsi 20.792 kvadratmetr olan 208 fərdi ev tikilib istifadəyə verilmişdir.

## Mədəniyyət və turizm

İlin 9 ayı üzrə rayonda 1 mədəniyyət mərkəzi, 26 kitabxana, 1 xalq teatrı, 31 klub, 4 mədəniyyət və istirahət parkı, 3 muzey fəaliyyət göstərmişdir. 93 mədəniyyət abidəsi (61-i dövlət əhəmiyyətlidir), 1 dövlət qoruğu vardır.

2003-cü ildən sonra rayonda turizm obyektlərinin sayı 5 dəfə artaraq 15-ə çatmış,yerlərin sayı 6 dəfə artaraq 623 olmuşdur. Hazırda 15 min yerlik futbol stadionunun tikintisi üçün yer ayrılıb. «Ratfinq» mərkəzindi tikinti tşləri yekunlaşıb, «Cıdır» atçılıq idman kompleksinin tikintisi davam edir.

## Təhsil və səhiyyə

Rayonun ümumtəhsil məktəblərində 16235 nəfər şagird təhsil alır. Müəllimlərin sayı 2330 nəfərdir. 22 məktəbəqədər uşaq müəssisəsinə 780 nəfər uşaq cəlb olunmuşdur. Peşə təhsili məktəbində 408 nəfər gənc 8 peşə üzrə təhsil alır.

Rayon üzrə 6 xəstəxanada 330 çarpayı yeri var. 36 tibb və feldşer-mama məntəqəsi, 9 ambulator müəssisə, ümumiyyətlə, 51 tibb müəssisəsi fəaliyyət göstərir. Bu müəssisələrdə 178 həkim, 461 orta tibb işçisi çalışır. Rayon əhalisinin hər 10 min nəfərinə 18,8 həkim, 48,6 nəfər tibb işçisi düşür.

## Nəqliyyat və rabitə

9 ay ərzində rabitə xidmətlərinin həcmi 887,1 min manat, ötən ilin müvafiq dövrü ilə müqayisədə 64,1 min manat çox olmuşdur. Nəqliyyatda sərnişin daşımalarının sayı 6 milyon 187 min nəfərə (ötən illə müqayiədə 6 faiz çox) çatmışdır. Yük daşımaları 894 min ton olmuşdur ki, bu da ötən ilin müvafiq dövrünə görə 43 min ton çox olmuşdur.

Rabitə müəssisələrində çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 306,5 manat (artım 9,5 manat) təşkil etmişdir. Bu sahədə çalışanlara 2400 manat sosial xarakterli ödəmələr verilmişdir.

## Məşqulluq, yeni açılmış iş yerləri və əhali

İlin 9 ayında rayonda məşğul əhalinin sayı 48795 nəfər təşkil etmişdir. Onların 11198 nəfəri müzdla işləyənlərdir. Muzdla işləyənlərin 7088 nəfəri (63,3 faizi) dövlət sektorunda, 4110 nəfəri (36,7 faizi) isə qeyri-dövlət sektorunda fəaliyyət göstərir. Məşğul əhalinin 81 faizi və ya 37597 nəfəri muzdsuz işləyənlərdir. İşsiz əhalinin sayı 3182 nəfər olmuşdur. Yeni açılmış iş yerlərinin sayı isə 821-dir. Ümumiyyətlə, 2003-cü ilin oktyabr ayının 1-dən cari il oktyabr ayının 1-dək rayonda 14.493 yeni iş yeri açılmışdır. Bu iş yerlərinin 12445-i daimi iş yeridir.

İqtisadiyyatda muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı 277,6 manat təşkil etmişdir.

2016-cı ilin oktyabr ayının 1-nə rayon əhalisinin sayı 104263 nəfər olmuşdur. Hər kvadratkilometrə 66,1 nəfər əhali sıxlığı düşür. Əhalinin 13860 nəfəri, yaxud 13,3 faizi şəhərdə, 21791 nəfəri, yaxud 20,9 faizi qəsəbələrdə, 68605 nəfəri, yaxud 65,8 faizi kənd yerlərində yaşayır.

9 ay ərzində rayonda 1293 körpə doğulmuş,405 nəfər ölən qeydə alınmışdır. Bir yaşa qədər ölən uşaqların sayı 4 nəfər olmuşdur.

**Rayon statistika idarəsi.**

# Abadlıq fərəh gətirir

Qəbələ şəhərinin beşmərtəbələr adlanan ərazisinə yolu düşənlər gözlərinə inanmırlar. Bir neçə ay öncə beşmərtəbələrin həyəti çox baxımsız vəziyyətdə idi. Bir tərəfi kol-kos basmış, sınıqsalxaq, lazımsız əşyalar həyətin hər tərəfinə səpələnmişdi. Beşmərtəbəli binaların əksəriyyətində köhnəlmiş kanalizasiya xətlərinin sıradan çıxması nəticəsində çirkab suları bəzən həyətə axırdı. Rayon icra hakimiyyətinin məsələyə müdaxiləsi və gündəlik nəzarəti nəticəsində buradakı köhnəlmiş kanalizasiya xətləri yeni daha iri radiuslu müasir turbalarla dəyişdirildi. Həyətdəki yol və meydançalara qum-çınqıl tökülüb hamarlandı. Bardürlər düzülərək səkilər və gül-çiçək, bəzək ağacları əkmək üçün yerlər qaydaya salındı. Həyətdəki meydançalara və yollara asfalt döşəndi. Ən başlıcası həyətdəki neçə illərdir ki, kol-kos basmış, qapısı sınıb dağıldığından kiçik yaşlı uşaqlar üçün təhlükəyə çevrilmiş köhnə elektrik transformatorunun yerləşdiyi uçuq tikili həmin transformatorla bərabər sökülüb götürüldü. Əvəzində həyətin bir küncündə müasir, qapalı, dəmir məhəccərlə əhatə olunmuş yaxşı görünüşlü müasir transformator qoyuldu.



Balacalar da yaddan çıxmadı. Həyətdə onların əylənməsi üçün yelləncəklər və digər oyun yerləri quraşdırıldı.

**✍ Qüdrət SƏMƏDOV.**
**S. Umuyev**